# İlham Əliyevin yüksək nüfuzu rəsmi Bakı ilə məsləhətləşməyə ehtiyac yaradır



**"ABŞ-Aİ-Ermənistan müştərək konfransının keçirilməsi Cənubi Qafqazda uzun müddətdən sonra yaranmış sülh və sabitlik təşəbbüslərinə ziddir. Nəzərə almaq lazımdır ki, bu cür addımlar regionda yeni münaqişəyə səbəb ola bilər. Prezident İlham Əliyev də ABŞ-nin Dövlət katibi E.Blinken və Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenlə telefon danışıqları zamanı Brüssel görüşünün qeyri-şəffaf hazırlanmasının, qeyri-inklüziv xarakter daşımasının regionda sülhə, əməkdaşlığa deyil, ayırıcı xətlərin və nəticə etibarilə gərginliyin yaranmasına gətirib çıxaracağını qeyd edib".**

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Soltan Məmmədov deyib. Deputat bildirib ki, Azərbaycan bununla bağlı mövqeyini kifayət qədər aydın şəkildə ifadə edib. Bəzi Avropa ölkələrinin siyasətində müşahidə olunan ikili standartlar, onların İrəvanı açıq şəkildə dəstəkləyən bəyanatları, xüsusilə də Fransanın Ermənistanı silahlandırması bu cür görüşlərin region xalqlarının maraqlarına xidmət etmədiyini demək üçün ciddi əsaslar verir: "Bu gün Cənubi Qafqazın, bu bölgədə yaşayan bütün xalqların ilk növbədə sülhə, sabitliyə, əməkdaşlığa ehtiyacı var. Azərbaycanla Ermənistan tarixdə heç vaxt olmadığı qədər sülhə yaxındır. Lakin bəzi Qərb dövlətlərinin geosiyasi iddiaları Ermənistan hakimiyyətində əsassız ümidlər, illüziyalar yaradır. Bu isə nəticə etibarilə münasibətlərin normallaşması prosesinin ləngiməsinə səbəb olur".

Soltan Məmmədov qeyd edib ki, ABŞ və Aİ rəhbərliyinin Prezident İlham Əliyevə telefon açaraq vəziyyəti izah etməyə çalışması regionda ölkəmizin iştirakı olmadan irəli sürülən ideya və təşəbbüslərin həyata keçirilməsinin mümkün olmadığını bir daha təsdiqləyir. Bu gün Azərbaycan regionun ən güclü iqtisadiyyata, ən qüdrətli orduya və beynəlxalq nüfuza malik aparıcı dövlətidir. "Azərbaycan Prezidentinin siyasi nüfuzu, beynəlxalq münasibətlər sistemində ölkəmizin mövqeyini gücləndirən xarici siyasət strategiyası bütün həssas məsələlərdə rəsmi Bakı ilə məsləhətləşməyə ehtiyac yaradır. Bizim mövqeyimiz isə dəyişməzdir, Cənubi Qafqazla bağlı məsələləri yalnız region dövlətlərinin iştirakı ilə həll etmək mümkündür. Başqa dövlətlərin bu prosesə müdaxiləsinin faydasız olduğuna dəfələrlə şahidlik etmişik".

Deputat vurğulayıb ki, Azərbaycanın Ermənistana hücum etmək niyyətində olması barədə bəzi ölkələr tərəfindən səsləndirilən əsassız ittihamlar fonunda Avropa İttifaqı-Ermənistan-ABŞ müştərək konfransının yalnız iqtisadi məsələlərə həsr olunacağına dair açıqlamalara inanmaq absurddur. Həmçinin o da nəzərə alınmalıdır ki, sözügedən konfransda Ermənistan üçün təhlükəsizlik zəmanətinə dair sənədin imzalanacağı təqdirdə ABŞ və Avropa İttifaqı rəsmi İrəvanın sabitliyi pozan istənilən hərəkətinə görə məsuliyyəti bölüşməli olacaqlar.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 6 aprel, № 71.- S.7.